# Yeni nəsil tərbiyəsi - müharibəni bu gənclər uddu...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

**Azərbaycanda müstəqilliyin ilk illərində - 1991-1993-cü illərdə, yadımızdadır ki, gənclərin siyasi məqsədlər naminə çirkin kampaniyalara sürüklənməsi onların gələcək inkişafına çox böyük mənfi təsir göstərdi. 1993-cü ildən başlayaraq, Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu sahədə nizamlı işlər görüldü.**

Ümummilli liderimizin ən çox diqqət etdiyi sahələrdən biri məhz uşaq və gənclərin mənəvi və fiziki inkişafı oldu. 1994-cü ildə Heydər Əliyevin fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması bunun əyani sübutudur. Ondan sonrakı mərhələdə, 2003-cü ildən bu günə kimi görürük ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan gəncləri arasında Heydər Əliyevin azərbaycançılıq ideologiyası daha çox təbliğ olunmağa başlanıldı, inkişaf etdirildi. Bunun üçün müxtəlif dövlət proqramları qəbul olundu. Dövlət gənclər siyasətinin qəbul olunması, zaman-zaman bu qanun layihəsinin daha da təkmilləşdirilməsi, istedadlı gənclərin üzə çıxarılması, xaricdə təhsil proqramlarının həyata keçirilməsi, idman tədbirlərinin əhatəsinin genişləndirilməsi, bunun üçün infrastrukturun qurulması, Azərbaycan gənclərinin daha təhsilli, savadlı olmaları üçün ölkə daxilində universitetlərin təkmilləşdirilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü siyasətdir. Prezident İlham Əliyevin hakimiyyəti dövründə böyüyən gənclərimizin 44 günlük Vətən Müharibəsində necə qəhrəmanlıq göstərdiklərinin şahidi olduq. Bunun da kökündə ölkə Prezidentinin apardığı düzgün, düşünülmüş, məqsədyönlü siyasət dayanırdı. Zaman dəyişdikcə bu sahədə yeni baxışlara çox böyük ehtiyac var. Vətən Müharibəsində əldə etdiyimiz tarixi zəfərdən sonra gənclərimizin beyinlərini yumaq, onları düzgün yoldan yayındırmaq üçün xarici, xüsusən ermənipərəst dairələr tərəfindən iş aparılır. Əlbəttə, buna da adekvat cavab verilməli, müasir zamanın tələbinə uyğun addımlar atılmalıdır. Radikal dini cərəyanlar vasitəsilə gənclərin beyinlərini yumağa çalışırlar.

### Prezident: "Əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetirib..."

Prezident İlham Əliyev Şuşada - Cıdır düzündə xalqa müraciət edərkən deyib:

"Biz bu vəziyyətlə barışmadıq və mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu Qələbəni yaxınlaşdırırdı və bütün amillər birləşərək bu müharibənin nəticələrini şərtləndirdi".



### Azərbaycan gəncliyi bundan sonrakı dövrdə də ölkənin inkişafı üçün əlindən gələni edəcək

Bakı Gənclər Mərkəzinin direktoru Nərgiz Babayeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan gəncləri 44 günlük Vətən müharibəsi zamanı da olduqca böyük qəhrəmanlıq göstərdilər: "Məhz Ali Baş Komandanın rəhbərliyi və Azərbaycanın gənc əsgərlərinin şücaəti nəticəsində torpaqlarımız işğaldan azad olundu. Prezident İlham Əliyev də müharibə zamanı gənclərimizin döyüşlərdə göstərdikləri şücaətdən geniş danışıb, onların Vətən uğrunda fədakarlıqlarını yüksək qiymətləndirib. Əminəm ki, Azərbaycan gəncliyi bundan sonrakı dövrdə də Azərbaycanının inkişafı üçün əlindən gələni edəcək və Prezident İlham Əliyevin ətrafında daha sıx birləşəcək. Bir məqamı da xüsusi olaraq qeyd etmək istərdim. İşğal altında olan torpaqlarımızın azad olunmasında iştirak edən gənclər ulu öndər Heydər Əliyev məktəbinin, Prezident İlham Əliyevin idarəçiliyinin yetirmələridir".

Mərkəz rəhbərinin sözlərinə görə, Vətən müharibəsində və bugünlərdə keçirilən antiterror tədbirləri nıticəsində yüksək vətənpərvərlik ruhu ilə, torpağa, dövlətə sonsuz sevgilərlə savaşa atılan gənc əsgər və zabitlərimiz üçün Qarabağ, sadəcə, torpaq demək deyildi: "Onların hər biri Qarabağın həm də xalqımızın ləyaqəti, şərəfi, taleyi olduğunu yaxşı bilirdi. Ona görə də ordumuz bu hisslə, bu yanğı ilə 44 gün ərzində mərdliklə döyüşdü, misilsiz qəhrəmanlıqlar nümayiş etdirdi.

Azərbaycan Ordusunun əzmkarlığı, şücaəti, mərdliyi həm də ölkəmizdə ötən illər ərzində gənclər siyasətinin uğurla həyata keçirilməsi ilə bağlıdır. Belə ki, dövlətimizin başçısı prezidentlik fəaliyyətində gənclərə diqqət və qayğını daim diqqət mərkəzində saxlamışdı. Buna görə də gənclik indiki kimi, hər zaman cəmiyyətin aparıcı qüvvəsi kimi çıxış etmiş, sabitliyin, təhlükəsizliyin təmin olunmasında, möhkəmlənməsində xüsusi rol oynayıb.

Azərbaycan gəncliyi 30 il ərzində Ermənistanın işğalı səbəbindən ölkəmizin hansı ağrıacıları yaşadığını, neçə-neçə azərbaycanlı ailəsinin məhv edildiyini, valideynlərinin doğma yurdlarından didərgin salındıqlarını yaxşı bilirdi. Azərbaycan gəncliyi Ermənistan ordusu tərəfindən törədilən vəhşilikləri heç zaman unuda bilmir, Ermənistan və qondarma "Dağlıq Qarabağ rejimi"nin rəhbərliyi tərəfindən törədilən Xocalı soyqırımını yaddan çıxarmır, günahsız qurbanların xatirəsini daim əziz tuturdu".

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**